# Haqqında məqalələr

---

## Elə bağlı sənətkar

Hüseyn Arif fitrətən lirik şairdir. O, hətta epik səpkili poemalarında da lirik şair olaraq qalır. Onun lirik ricətləri, təbiət və insan psixologiyasının təsvirindəki lirizm təsdiq edir ki, bu cəhət şairin yaradıcılığında əsas aparıcı amildir və onun bütün əsərlərinin ruhuna hopmuşdur. Hüseyn Arif hər yerdə, hər zaman qələmə almaq istədiyi hər kiçik lövhədə belə şeiriyyət axtarır və bunu bir şair həssaslığı ilə duyub tapır. Şairin lirik qəhrəmanı yazın gəlməsində, otların-çiçəklərin cücərməsində, dağ kəlinin sıldırım qayaların zirvəsinə qalxmasında, sonsuz ənginliklərdə qürurla süzən qartal uçuşunda, vələslərin, palıdların əzəmətində, bəzən kükrəyib daşan, bəzən də quzu kimi sakit axan çayların büllur sularında, turacların, kəkliklərin nəğməsində əzəli və əbədi bir şeiriyyətin olduğunu duyur. Bütün bunlar Hüseyn Arifin təsvirində əyilməzliyin, qürurun, mərdliyin, saflığın, paklığın və nəticə etibarı ilə Vətənin rəmzinə çevrilir. Təbiətə məftunluq, onu bütün incəliklərinə qədər görmək və hiss etmək şairin lirik təsvirlərinin gözəlliyinə, şeirlərinin daha axarlı olmasına zəmin yaradan əsas amillərdəndir. Şairin elə bir şeiri yoxdur ki, orada onun səyyar xəyalı Vətən torpağını qarış-qarış, addım-addım, cığır-cığır dolaşmasın. Bu şeirlərin çoxunda Hüseyn Arif şairdən daha çox rəssama bənzəyir, ancaq rənglərlə yox, sözlərlə lövhələr yaradır.

Qaralardı buludlar,
İslanardı göy otlar,
Kişnərdi harın atlar,
Dağlara çən düşəndə

Çobanlar darıxardı,
Ürəyi qəm sıxardı,
Qurd şikara çıxardı,
Dağlara çən düşəndə

Şeiriyyətlə dolu olan dilimizin söz xəzinəsindən seçilmiş, ilk baxışda sadə görünən bu ifadələrdə şair bütöv bir təbiət lövhəsi yaratmışdır. Hüseyn Arif təbiəti sadəcə tərənnüm etmir, özü ona qaynayıb qarışır. Məhz buna görə də qəlbi təbiətlə bir döyünür: hardasa bir ağac qırılanda, hardasa bir qartal vurulanda, hardasa bir dağ kəli namərd gülləsinə tuş gələndə, turac-kəklik nəğməsi susdurulanda şairin ürəyi göynəyir, haraya çatmağa çalışır:

A çinar, təbiət sarı geyəndə,
Külək titrədəndə, yağış əyəndə,
Bir balta yarası sənə dəyəndə,
Ağrına, acına kömək olaydım

Şair "vələsin başına dolu döyüb, budağı qırılanda ona dayaq olmaq istəyir." Çalışır ki, meşə dara düşəndə onun harayına çatsın. Şairin bu təlaşı səbəbsiz deyil. O görür ki, səhvə yol veririk. " Bağ-bağatı yandırırıq", "maşın çəkib ağacları sürüyür", "köklər daşlar altında qalır". Belə getsə qızılgülün, kəkotunun ətrinə həsrət qalacayıq. Hüseyn Arif təbiət vurğunu olan bir şairdir. Lakin onun əsas təsvir obyekti insandır. Bu insanın hənirtisi, nəfəsi olmayanda təbiət də yetim qalır, öz-özlüyündə nə qədər gözəl olsa da, insansız təbiətin yaraşığı yoxdur. İnsansız təbiətdə bir hüzn, kədər, payız sarılığı yaranır:

El köçüb, yurd yeri qalıb boşuna,
Çöl quşu sığınıb ocaq daşına
Çölləri, düzləri alıb başına
Bir xəzan küləyi dolanır bugün

Bu bənddəki ifadələrin sərrastlığı, sözlərin düzülüşü o qədər məharətlə, ustalıqla və xəsis rəssam boyaları ilə verilmişdir ki, dərhal bütöv bir lövhə, psixoloji hal gözümüz önündə canlanır. Hiss edirsən ki, bir az əvvəl insan nəfəsi ilə isinən, yaraşığa minən, cavanların çalıb-çağırdığı, nazlı gözəllərin dolaşdığı bu yerlər, sazlı-söhbətli yurd yeri boş qalıb. Təbiət insansız öz gözəlliyini itirib. Təbiət xiffət eləyir, üşürgələnir, isti nəfəs axtarır. Bu istilik ancaq ocaq daşında qalıb. Elə buna görə də çöl quşu insan hənirtisinə tapınıb, ocaq daşına qısılıb. "Çöl quşu sığınıb ocaq daşına" misrasında Hüseyn Arif elə bir poetik lövhə yaradıb ki, onu şərh etməkdə adam çətinlik çəkir. Burada həm şairimiz dilə, həm də şairin sözlərə necə hakim olmasına heyran qalırsan, həm də çox sadə, ilk baxışda çox adi görünən, lakin dərin fəlsəfi yük daşıyan bir fikirlə qarşılaşırsan. Hüseyn Arifin təsvir etdiyi insanlar kimdir? Bu insanları yaşadan, düşündürən nədir? Kitab vərəqlədikcə bu suallara cavab tapırsan və çox mürəkkəb təbiətli insanlarla qarşılaşırsan.

Bu insan:

Gah açıb gülə dönür,
Gah yanıb külə dönür,
Gah sakit gölə dönür,
Bilmirsən nədir insan?

Doğrudan da insan təbiətin müəmmasıdır. Şair bu şeirində insanın keçdiyi təkamülü, dialektik dəyişmələrini ümumi şəkildə verir. Sonrakılarda isə bu sirləri açır, oxucunun əlindən tutub lirik qəhrəmanla birlikdə Vətəni dolaşır. Biz Araz sahilinə gəlirik. Dayanırıq, həsrətlə yenə də həsrətlə köks ötürüb o biri taya baxırıq. Bu yerdə şairin titrək səsi qulağımıza gəlir:

Aramızdan axıb keçir,
Araz bulana-bulana
Seyr edirəm görkəmini,

Yaram sulana-sulana
Qartal gəzir dağ başını,
Ürək sanır sirdaşını,
Səpələyir göz yaşını,
Bulud dolana-dolana.

Başa düşürsən ki, şairin təsvir etdiyi insan-lirik qəhrəman parçalanmış ürəyin, ikiyə bölünmüş vətənin dərdini çəkir, "yarası sulana-sulana", "bulud kimi dolana-dolana", "göz yaşı axıdır", "yanıb külə dönür". O görür ki, "Savalanın başını ciskin alıb", bu işlərə "qartal da qayada mat qalıb". Necə də mat qalmıyasan? Gərdişi-dövranın elə işləri var ki!

Hüseyn Arifin bu kədərli lirik qəhrəmanı bir də ona görə cazibədardır ki, insanların taleyini düşünür, təbiətə dar ayaqda gərək olmaq istədiyi kimi, insanlara da gərək olmağa çalışır.Həm də şair bu fikirləri patetik şəkildə demir. Çox sakit, təmkinlə sözünü oxucuya çatdırır:

Nə şaxta var, nə sazaq,
Günəş qalxıb nur saçır:
Üşüyürəm mən ancaq

Belə gözəl havada şairi üşüdən, onun sümüyünü sızladıb, ürəyini titrədən nədir? Gəlin, sonrakı misralara nəzər salaq:

Nə dənizdə uğultu,
Nə də üfüqdə çən var.
Üşüyürəm mən ancaq,
Hardasa üşüyən var!

Demək havada "üşüyən olduğuna" görə şair narahatdır. Bu "üşütmək" sözü isə geniş məna daşıyır. Oxucuya aydın olur ki, şairin lirik qəhrəmanı əsrimizin sonuna doğru daha çox çalxalanan dünyamızın qorxunc faciələr içində qalan insanlarının dərdini çəkir. Şair "dəli tufanlarla çarpışaraq, dumanın, çənin səfini pozmaq", "bir bələdçitək zülmət gecədə azan kəsin qolundan tutmağa" çalışır.

Hüseyn Arif şeirlərində sözlərin sıralanması, təbii axarı, kəlmələrin tərkibindəki səslərin belə cərgələnməsi o qədər sadə və ürəyə yatımlıdır ki, adam şeir oxuduğunu hiss etmir, elə zənn edir ki, kiminləsə sadəcə söhbət edir. Lakin bu həmsöhbətin elə gözəl, elə incə və elə zəngin poetik düşüncə tərzi, elə obrazlı təfəkkürü var ki, buna heyran qalmaya ilmirsən. Hüseyn Arifin şeir dilində topuq çalmalara, söz büdrəmələrinə, misra kələ-kötürlüyünə rast gəlmək qeyri-mümkündür. Buradan belə nəticə çıxartmaq olmaz ki, Hüseyn Arif söz axtarışında olmur, bu axtarışlarda zirvəyə qalxmaq üçün əziyyət çəkmir, sözlərin seçimində şair narahatlığı keçirmir. Əksinə, Hüseyn Arif yazı masası arxasında oturmayanda, harasa gedəndə, harayasa tələsəndə, hətta səninlə söhbət edəndə belə söz axtarışında olur, bəzən sözlər onu arxasınca elə uzaqlara aparır ki, səyyar xəyalın qanadlarında o elə uzaqlara gedir

ki, həmsöhbətindən, hətta özündən belə uzaqlaşır. Belə anlarda onu huşdan ayırmaq əlbəttə günahdır, çünki şair tapdığı söz karvanından aralana bilər. Qədimdə belə bir hikmət var ki, ən böyük ustalıq, ən çətin, ən mürəkkəb hissləri, fikirləri sadə, adi, lakin yüksək poetik, obrazlı ifadələrlə verməkdən ibarətdir. L.N.Tolstoyun təbirincə desək gərək elə yazasan ki, oxuyan "buna nə var", "bunu mən də yazaram" – desin. Amma əlinə qələm alanda görsün ki, bu qeyri-mümkündür. Hüseyn Arif poeziyasını zinətləndirən cəhətlərindən biri də məhz budur.

Enişi, yoxuşu, düzü bir olub,
Məqsədi, məramı, üzü bir olub,
Bəlkədə də, boşda da sözü bir olub,
Şərəfli, şöhrətli, adlı babalar.

Zirvədə alnını oxşadı külək,
Dərədə üstünə ələndi çisək,
Arabir qayaya dirsəklənərək,
Qartalla başbaşa yatdı babalar.

"Babalar" şeirindən gətirdiyimiz bu misralarda şair elə bil oxucusuyla adicə söhbət edir, şeirin təbii axarını belə hiss etmirsən. Amma gözümüz önündə sözü, məramı, bərkdə də, boşda da üzü bir olan mərd insanlar canlanır. Şair bu mərd, sözünə bütöv, dostuna sadiq babaların əzəmətini zirvələrə qaldırmaq, onların sal qaya kimi yenilməz olduğunu oxucusuna çatdırmaq üçün çox sərrast, obrazlı sözlər tapır: Babalar "qayalara dirsəklənərək qartalla baş-başa yatır". Qartalla zirvədə baş-başa yatan insanın qartal kimi vüqarlı olacağını şair demir, oxucu özü görür, özü təsdiqləyir. Hüseyn Arifin bu cür ustadlığının sirri nədədir, nə üçün onun fikir karvanının axarı bu qədər sadə və aydındır? Bu suala cavab axtararkən ən əvvəl Hüseyn Arifin fitrətən xalq poeziyasına, xalq düşüncə və təfəkkür tərzinə, xalq deyimlərinə dərindən bağlılığı və bələd olmasını xatırlamaq lazımdır. Xalq poeziyası onun yaradıcılığının iliyinə, qanına hopmuşdur.

Yuxarıda qeyd etdiyim kimi Hüseyn Arifin əsl qəhrəmanı insandır. Bu insan Araz sahilində həsrətdən "yanıb külə dönür" lakin onun "gül kimi açdığı" anlar da var. Belə anda Hüseyn Arifin deyim tərzi də dəyişir. Şair gah kövrəlir, gah da şuxluq edir. Altmış yaşı haqlamış şair hərdən dayanır, nəfəsini dərib keçdiyi yollara baxır. Uşaqlığın şirin, kövrək günlərini xatırlayır. Ürəyi göynəyə-göynəyə deyir:

Dəyələr böyründə qarım qazdığım,
Sinəmi ocağa verib qızdığım,
Çisəkdə islanıb, çəndə azdığım,
Dumanda itdiyim günlər olaydı

Lakin şair bədbinləşmir. Vaxtı ilə altmışı haqlamış bir meşəbəyinin "arada bir gözələ göz vurmasına" sataşan, onunla poetik zarafat eləyən şair, indi özü ilə zarafatlaşır.

Fərəhim, hüsnünü görən xoşlanır,
Buxaq ətirlənir, tel naxışlanır,
Sənin gül mövsümün təzə başlanır,
Mənim çəmənimin köç vədəsində.

Hüseyn Arif xalq məhəbbəti qazanmış şairdir. Bunun əsas siri odur ki, o oxucuların qəlbinə, zehninə yol tapa bilmişdir. Şeirləri dillər əzbəri olmuşdur. Azərbaycanın elə bir guşəsi yoxdur ki, orada şairin şeirlərini sinədən söyləməsinlər. Hüseyn Arifin yaradıcılığı yalnız mütəxəssis ədəbiyyatşünasların tədqiq obyekti olaraq qalan yaradıcılıq deyil. Onun şeirləri canlıdır, obrazlı təfəkkürün, fəlsəfi anlayışların məhsuludur. Bu cür yaradıcılıq qəlblərdə yaşayır. Şairin özünün dediyi kimi.

Böyüklə, kiçiklə həmsöhbət olan,
Canında tükənməz hərarət olan,
Gücü xalq, dayağı təbiət olan,
Bir şair həyatda unudularmı?

***Xalq yazıçısı,***
***İSMAYIL ŞIXLI***

## Hüseyn Arif -50

Zəngin müasir şeirimiz bir neçə nəslin nümayəndələri tərəfindən yaradılır. Onların arasında şair Hüseyn Hüseynzadənin öz tanış səsi, öz ilhamlı ürəyi var. Hüseyn təbiəti dərindən duymaq və öz poetik istedadı ilə göstərmək qabiliyyətinə malik sənətkarlarımızdandır. Şeirlərində yarpaq öz rəngində, çiçək öz ətrindədir. Bu, təbiilikdir. Mən Hüseynin təbiətə, Azərbaycan meşələrinə həsr olunmuş gözəl şeirlərini oxuyanda, təbiətin qoynuna gəlməyi arzulayıram. Hörmətli şairimizin bir üstünlüyünü də onda görürəm ki, o, qəlbinə, ruhuna doğma olan mövzulardan yazır, həm də gözəl yazır. Sevir və sevdirə bilir. Mən ilk şeirlərimi ona oxumuşam. Gəncə Pedaqoji İnstitutunda, bundan qabaq isə orta məktəbdə təhsil aldığım zaman Hüseyn müəllim tez-tez o tərəflərə gedərdi. Mənə məsləhətlər verər və deyərdi ki, xalq yaradıcılığını dərindən öyrənmək lazımdır. İndi görürəm ki, onun özünün bədii təfəkkürü zəngin folklor qaynaqlarından qidalanmışdır. Folklorumuz, xalq ədəbi hərəkatımızın tədqiqi sahəsində görkəmli işlər görülmüş, qiymətli axtarışlar aparılmışdır. Hüseyn Hüseynzadə də aşıq ədəbiyyatını gözəl bilən və bununla fəxr eləyən, ondan səmərəli şəkildə öyrənən, həm də öyrədən tədqiqatçı şairdir. Aşıq Alı haqqında, Aşıq Mirzə haqqında yazdığı qiymətli məqalələrində şair, aşıq yaradıcılığının bədii formalarını ustalıqla açır, bu ədəbi xəzinənin sehirli açarını ürək açıqlığı ilə oxucusuna təqdim edir. Dilqəmdən, Tufarqanlı Abbasdan, Molla

Cumadan, Aşıq Ələsgərdən, Aşıq Alıdan danışanda, onlardakı poetik obrazları, bədii çalarları, təzadlı söz oynatmalarını - bu sənət nümunələrini dinləyəndə mən Hüseynə valeh olmaya bilmirəm. Şairin özü gözəl saz çalır. Bu qüdrətli xalq poeziyası onun qanına işləmişdir. Belə ədəbi məktəb keçən şairin şeirləri rəvan, axıcı, musiqilidir. Tez əzbərlənən, yaddaqalandır. Nəinki onun oxucuları, aşıqlar, hətta şairin öz qələm dostlarının dilindən mən nə qədər onun əzbər parçalarını eşitmişəm.

Necə ki, qız qızdır ata evində
O, məğrur dayanan bir dağa bənzər
Amma gəlin olub geri dönəndə
Hər şeydən sıxılan qonağa bənzər.

Nə qədər gözəl və bədii deyilmişdir! Psixoloji dərinlik, xarakterin mənəvi aləminin belə təbii və incə tədqiqi istedadlı şair qələminə məxsus boyalardır, onun özünün daxili zənginliyidir.

Eyvana əyilən çarpaz budaqda
Bülbülün nəğməsi şeir deyilmi...

Görün, burada şair necə gözəl şəkil çəkmiş, anı tutub saxlaya bilmiş, rəssamlıq etmişdir! Onun yazdığı nəğmələrin şirinliyinin, duzluluğunun bir məziyyəti də bəlkə elə bunlardır. Bir sıra poemaların, şeirlərin, pyeslərin, librettoların, xalq yaradıcılığına aid məqalələrin müəllifi kimi tanıdığımız Hüseyn Hüseynzadənin əlli yaşı tamam olmuşdur. Özü demişkən, əsl sənətkar qocalmır:"Əlli yaşında da, yüz yaşında da".

***Xalq şairi,***
***NƏRİMAN HƏSƏNZADƏ***